Azərbaycan.- 2025.- 4 iyul (№ 134).- S.12.

# Beynəlxalq tədbirə bu dəfə Laçın evsahibliyi etdi

## Şəhərdə dayanıqlı inkişaf sahəsində qadınların əməkdaşlığı müzakirə olundu

Beş il əvvələdək intizarla, həsrətlə adlarını andığımız, xiffətini çəkdiyimiz Qarabağ və Şərqi Zəngəzur bu gün tarixinin xoş çağlarındadır. Otuz ilə yaxın Ermənistanın işğalı altında qalmış, Vətən müharibəsində Müzəffər Azərbaycan Ordusunun möhtəşəm Zəfəri ilə əsarətdən qurtularaq azadlığına qovuşmuş yurd yerlərimizdə bu gün tikinti, quruculuq işləri gedir. Azğın düşmənin dağıtdığı, məhv etdiyi kəndlər, qəsəbələr, şəhərlər yenidən qurulduqca keçmiş məcburi köçkünlər öz dədə-baba yurdlarına qayıdırlar.

İşğaldan azad edilmiş ərazilərimiz bu gün həm də möhtəşəm tədbirlərin keçirildiyi, əhəmiyyətli məsələlərin, qlobal problemlərin müzakirə olunduğu məkana çevrilib. Növbəti dəfə belə əhəmiyyətli tədbirlərdən birinə Laçın şəhəri evsahibliyi edib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə iyulun 2-də Laçın şəhərində ilk dəfə olaraq İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO) Həftəsi çərçivəsində ECO-nun Qadınlar Forumu keçirilib. Tədbirin əsas məqsədi qadınların bütün sahələrdə imkanlarının artırılması üçün ECO ölkələrində sektorlararası əməkdaşlığı təşviq etmək, təşkilatın əhatə etdiyi regionda dayanıqlı, inklüziv və davamlı cəmiyyətlərin formalaşmasında onların rolunu vurğulamaq və gücləndirmək olub.

Forumda çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova ECO kimi vacib regional format çərçivəsində Qadınlar Forumunun təşkilinin qadınlar arasında davamlı inkişaf və iqlimə dayanıqlı gələcəyin qurulması sahəsində sistemli və davamlı regional əməkdaşlığın başlanğıcı ola biləcəyini diqqətə çatdırıb. Bahar Muradova qadınların iqtisadi imkanlarının artırılmasının və sosial rifahının təmin olunmasının cəmiyyətin ümumi inkişaf səviyyəsinin göstəricisi olduğunu söyləyib: "Biz inanırıq ki, qadınların iqtisadi müstəqilliyi olmadan onların sosial və siyasi güclənməsindən danışmaq mümkün deyil. Odur ki, Azərbaycan daim bu sahədə mühüm təşəbbüslərlə çıxış edir və bu sferada müsbət təcrübəsini paylaşmağa hazırdır. Ölkəmizdə qadın sahibkarlığının inkişafı üçün güzəştli maliyyə alətləri, bacarıqların artırılması proqramları, kənd yerlərində qadın əməkdaşlığını gücləndirən kooperativ modelləri geniş vüsət alıb. Eyni zamanda qadınların təhsilə çıxışı, elmdə, texnologiyada, innovasiyada fəallığının artırılması sahəsində də ölkəmiz ciddi nəticələr əldə edib".

Komitə sədri vurğulayıb ki, Azərbaycan digər çoxtərəfli formatlar çərçivəsində olduğu kimi, ECO müstəvisində də qadınların dayanıqlı inkişaf sahəsində əməkdaşlığının tərəfdarıdır: "Həmin platforma eyni zamanda 2025-ci ildə başa çatan ECO-nun Baxış sənədinin davamı kimi və 2026-2035-ci illəri əhatə edəcək yeni inkişaf strategiyasının işlənib hazırlanmasında mühüm rol oynaya bilər. İnanıram ki, bu forumun nəticələri ECO-da yeni səhifə açacaq və biz bu yolda tərəfdaşlarımızla çiyin-çiyinə irəliləyəcəyik".

ECO-nun gender bərabərliyinin təmin olunması istiqamətində mühüm addımlar atdığını və qadınların dəstəklənməsində çox israrlı olduğunu qeyd edən ECO-nun Baş katibinin müavini Silapberdi Nurberdiyev forumun qadınların güclü iqtisadi cəmiyyətin qurulmasındakı rolunu bir daha ortaya çıxaracağını bildirib. Diqqətə çatdırıb ki, qadınlara təkcə ənənəvi deyil, müasir sahələrdə də dəstək göstərilməli, onların rəqəmsal bacarıqları artırılmalıdır: "Artıq təşkilatın qadınların texnologiya sahəsində inkişafı ilə bağlı planları da hazırdır".

Özbəkistanın Baş nazirinin müavini, Ailə və Qadın Komitəsinin sədri Zulayxo Maxkamova qadınların təhsil, elm, iqtisadi sahələrdə inkişafının regional dayanıqlılığa imkan verəcəyini deyib. ECO Həftəsi çərçivəsində keçirilən ilk Qadınlar Forumunun təşkilinə görə Azərbaycan hökumətinə təşəkkür edən Zulayxo Maxkamova bildirib ki, forum rəhbər qadınlar arasında dialoqun qurulması üçün mühüm platformaya çevriləcək.

BMT Baş katibinin müavini, təşkilatın Dayanıqlı İnkişaf Qrupunun sədri Amina Mohammed videomüraciətində ECO-nun Qadınlar Forumunun sadəcə görüş deyil, həm də bir dialoq, bəyanat olduğunu qeyd edib. Bildirib ki, qadınlar innovasiya və "yaşıl iqtisadiyyat"da vacib rol oynamalı, təhsilə transformasiya etməli, öz ölkələrində aparıcı qüvvə olmalıdırlar: "Bu, bizim üçün prioritetdir. Əgər cəmiyyətdə dəyişikliklərə nail olmaq istəyirsinizsə, qadınların təhsilə çıxışı təmin edilməlidir. Onlar dövlət xidmətlərində, özəl sektor və sahibkarlıqda da fəal olmalıdırlar. Çünki qadınlar gələcəyi formalaşdırırlar. Gender bərabərliyinin təmin edilməsi vacibdir. Ötən ilin sentyabrında BMT çərçivəsində bununla bağlı xüsusi sənəd qəbul etmişik. Sənəd qadınların dayanıqlı inkişafın təmin olunmasındakı rolundan bəhs edir. Bu ilin oktyabr ayında BMT çərçivəsində növbəti forum keçiriləcək. Bu, bizim aramızda həmrəyliyin təzahürü olacaq. Biz transformativ dəyişikliklərə birlikdə nail olacağıq".

BMT-nin Baş katibinin müavini, təşkilatın Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyasının İcraçı katibi Armida Salsiah Alisjahbana isə foruma videomüraciətində dünyanın bir sıra problemlərlə üzləşdiyini vurğulayıb. Yaşadığımız dövrdə böhranların çoxluğunu, ekosistemlərin məhv olduğunu, iqtisadiyyatda qeyri-aydınlığın mövcudluğunu nəzərə çatdırıb: "Düşünürük ki, bu məsələlərlə bağlı çağırışları öz imkanlarımıza çevirməliyik. Rəhbərlik keyfiyyətlərimizi, bacarıqlarımızı və innovasiya ilə bağlı olduğumuzu nümayiş etdirməliyik. Bu gün Asiya və Sakit Okean regionu üzrə qadınların fəaliyyəti ilə yaxından maraqlanır və onların innovasiyaya çıxışının təmin edilməsi üçün çalışırıq".

ECO-nun Baş katibi Əsəd Məcid Xan Laçında İqtisadi Əməkdaşlıq Təşkilatının Qadınlar Forumu çərçivəsində jurnalistlərə düz 40 ildən sonra təşkilatın ilk Qadınlar Forumu keçirildiyini bildirib. Baş katib forumun keçirilməsi təklifinə və uzaqgörən siyasi baxışa görə Prezident İlham Əliyevə öz təşəkkürünü bildirib: "Qadınların təşkilatın işinə necə daha effektiv töhfə verə biləcəyini birlikdə nəzərdən keçirmək üçün ECO regionundan liderləri və nümayəndələri bir araya gətirə bildiyimiz üçün çox xoşbəxtik", - deyə Əsəd Məcid Xan deyib.

Beləliklə, hər zamankı kimi qonaqlarını gözəlliyi ilə heyran edən Laçın şəhərində keçirilən ECO-nun Qadınlar Forumu vacib və əhəmiyyətli məsələlər barədə çıxışlarla, fikir mübadilələri ilə yadda qalıb.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*